Güney əsilli qonağımız

# Araz Elsəs: Azərbaycan dövlətinin varlığı mənəvi qidamızdır

## *Güneydəki soydaşların hüquqlarının qorunmasına verilən dəstəyi isə dərman kimi qəbul etdik*





**Araz Elsəs dünya şöhrətli nəğməkar soydaşımız öz qopuzu ilə milyonları ədalətin bərpasına, həqiqətin təntənəsinə, azadlıq mübarizəsinin alovlanmasına, sülhə, əmin-amanlığa, ən başlıcası insan kimi yaşamağa çağıran güney əsilli mühacir sənətkardır. Yola saldığımız ildə qonaqlarımız çox olub. Araz Elsəs isə tamamilə fərqli, özünəməxsus obraza, əzmə, enerjiyə malik mübariz ozandır.**



Onun sözünü də eşitmək xoş oldu, sazını da. Nitqindəki məntiqli arqumentləri təbərrik kimi, ruhundakı azərbaycançılıq isə təbrik qismində idi. O, bizim suallarımızı cavablandırarkən 50 milyonluq cənublu soydaşlarımızın arzularını odlu-alovlu şəkildə dilə gətirə bilirdi. O, bizim duyğularımızı dəyərləndirərkən elə bir ovqat yaradırdı ki, böyük qəlbinə baş əyirdik. O, "Xalq qəzeti" redaksiyasının qonağı olmaqdan məmnunluq ifadə edirdi. Onunla həmsöhbət olmağın məmnunluğunu yaşayırdıq.

Əməkdaşımız Araz bəydən soruşdu ki, Prezident İlham Əliyevin bu il noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündəki çıxışında xatırlatdığı "Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatmışdır" çağırışına münasibətiniz necədir?

**Cavab məhz Araz Elsəs təfəkkürünə, xarakterinə, yaradıcılığına, məntiqinə xas oldu:**

– Bu bəyanat şəxsən məni çox duyğulandırdı. Bəli, biz də bunu istəyirik ki, Azərbaycan dövləti hər zaman soydaşlarının yanında olsun. Çünki Azərbaycan dövləti bizim yeganə ümid və qürur yerimizdir. Bu baxımdan, dövlət başçısının fikirləri bizdə dövlətimizə olan sarsılmaz inamı daha da yüksəyə qaldırdı. Prezidentin həmin fikirlərini Türk dövlət başçılarının görüşündə səsləndirməsi də özəl əhəmiyyət daşıyır. Çünki dünyanın müxtəlif ölkələrinə səpələnmiş türk xalqlarının hələ də yad dövlətlərin tərkibində çətinliklə yaşayan övladları vardır. Onların da hüquqları daim Türk dövlətlərinin nəzərində olmalıdır. İstər Azərbaycan, istərsə də digər Türk xalqlarının pozulan hüquqlarının əsas müdafiəçisi də məhz Türk dövlətləri olmalıdır. Ona görə də, cənab İlham Əliyevin bu təəssübkeş fikirləri, əslində, digər Türk liderlərinə də bir örnək olmalıdır. Qapımızı bağlayıb, sadəcə, öz vətəndaşlarımızla məhdudlaşmamalıyıq.



Biz böyük xalqıq və bu xalqın xeyli nümayəndəsi dünyaya yayılıb. Elə ölkələr var ki, orada onların hüquqları tanınmır. Onlardan biri də elə məhz öz vətənləri İrandır. 60 milyonluq millətimizin böyük bir qismi ordadır. İlham Əliyev bu fikirləri ilə həm də onların problemlərinin Azərbaycan dövləti üçün vacib olduğunu da vurğuladı. Hər halda dövlətimiz gücləndikcə xalqımızı müdafiə etmək hər yerdə asan olacaq. Ona görə də, öncə, dövlət–millət birliyini tam təmin etmək lazımdır.

**Qonağımızdan daha sonra soruşduq ki, cənab Prezidentin Qərbi Azərbaycan İcmasının təmsilçiləri ilə görüşdə səsləndirdiyi "Əminəm ki, biz öz ata-baba torpaqlarımıza qayıdacağıq" qətiyyətinə münasibətiniz necədir? Sinəsində bütöv Türk dünyasını, böyük Azərbaycan dövlətini, milli-mənəvi dəyərlərimizi yaşadan ünlü soydaşımızın cavabı görüşdəkilərin hamısının qəlbini riqqətə gətirdi.**

–Göyçə, Zəngəzur bizim əzəli-əbədi torpaqlarımızdır. İrəvan qədim Azərbaycan şəhəridir. Ermənistan adlı dövləti bizim ərazilərimizdə yaratmaq bu rəhmsiz topluma müyəssər oldu. Lakin biz ikinci Ermənistanın yaranmasının qəti əleyhinəyik. Bizim ulu torpaqlarımız olan Qərbi Azərbaycan güneyli və quzeyli bütövün bir hissəsidir. Sonradan tarixin müxtəlif mərhələlərində amansız tale bizi ayırmış, deportasiya olunmuşuq, bir-birimizdən aralı düşmüşük, soyqırımına uğramışıq və s. Ona görə də düşmən səvinməsin ki, biz onlara bir dəfə dövlət yaratmaq üçün öz torpaqlarımızdan güzəşt etmişiksə bundan sonra da edəcəyik. Düşmən düşünməsin ki, bu günə qədər bizə etdikləri zülmləri asanlıqla unudacağıq. Ümid etməsin ki, Türk dünyasının bütövlüyünü pozan Zəngəzur aralığından vaz keçəcəyik, ulu Göyçəmizi unudacağıq. Əsla! Göyçədən, Zəngəzurdan, Zəngibasardan, İrəvandan gələn soydaşlarımız bu gün də ora qayıdacaqları həsrətlə, ümidlə gözləyirlər. Göyçənin aşıqları, şairləri torpaq həsrətlərini də, öz yurdlarına məhəbbətini də özləri ilə gətirdilər ki, yeni nəslə çatdırsınlar, oranın bizə məxsus olduğunu unutdurmasınlar.

Bu gün aşıq ədəbiyyatımızda, sazımızda, sözümüzdə qorunan torpaq eşqi, Vətən yanğısı mütləq öz hədəfinə çatacaq. Ulu Göyçəmizə də, Zəngəzurumuza da dönəcəyik. Əski dövrlərdə olduğu kimi orada soydaşlarımız yenə də yaşaya biləcəklər. Əlbəttə, istək qəti olacaqsa, bu mütləq baş tutacaq. Bizim bütövləşməyimizin, torpaqlarımıza dönməyimizin də əsasında bu istək, bu yanğı dayanmalıdır. Yetər ki, biz xalq olaraq bunu hamılıqla istəyək, bu barədə gecə-gündüz düşünək. O zaman düşmənin çöküşü, bizim dirçəlişimiz daha tez baş verəcək.

**İttifaq MİRZƏBƏYLİ,**
**Anar TURAN,**
**"Xalq qəzeti"**